**2022-ci il 1 noyabr – 2023-cü il 19 yanvar tarixlərində ticarət və ictimai iaşə müəssisələrində həyata keçirilən monitorinqlər**

Nəzarət tədbirləri çərçivəsində satış şəbəkələrində məhsulların qida təhlükəsizliyi sahəsində tələblərə uyğunluğunun müəyyən edilməsi məqsədilə 2022-ci il 1 noyabr – 2023-cü il 19 yanvar tarixlərində, ümumilikdə **1584** ticarət və **662** ictimai iaşə müəssisəsində monitorinq həyata keçirilib. Monitorinq zamanı **61 ticarət** və **20 ictimai iaşə müəssisəsində** mənşəyi məlum olmayan, minimum keyfiyyət və təhlükəsizlik göstəricilərini təsdiq edən müşayiətedici sənədləri olmayan **468.86 kq** qatıq, **39 litr** süd, **170.115 kq** pendir, **7 kq** şor, **1 kq** süzmə, **1006 kq** müxtəlif növ turşu, **226.5 kq** müxtəlif növ mürəbbə, **40.3 kq** üzüm tənəyi, **24 kq** yağ, **14 litr** nar şirəsi, **20 kq** düşbərə, **3.85 kq** marinə edilmiş mal əti, **10 kq** şirniyyat, **4 litr** şərab, **2 litr** kompot, **5 ticarət müəssisəsində** isə əsas qablaşdırmanın üzərində etiketlənmə təmin olunsa da, satış vitrinində çəki ilə satılan məhsulların üzərində istehsal, son istifadə tarixi və s. məlumatları olmayan **67.4** kq pendir məhsulu aşkarlanıb. Aşkar edilmiş faktlarla bağlı qanunvericiliyə uyğun olaraq həmin məhsullar satışdan kənarlaşdırılaraq müəssisə rəhbərlərinə icrası məcburi göstərişlər verilib.